**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**“NAXÇIVAN” UNİVERSİTETİ**
**FƏNN SİLLABUSU**

Təsdiq edirəm:____________(kafedra müdiri)
Tarix: 01 fevral 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Kommersiya fəaliyyətinin əsasları |
| | **Fakültə** | İqtisadiyyat |
| | **İxtisas** | İqtisadiyyat |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavriat |
| | **Kurs** | II |
| | **Semestr** | III |
| | **Təlimçi** | Abbasova Mayisə Məmməd qızı |
| | **e-mail** | abbasovaruziya@gmail.com |
| | **Telefon** | 050 434 97 90 |
| | **Dərs günləri və saatları** | I gün 3-cü s., II gün 3-cü s., |
| **Tədris dili** | Azərbaycan | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | Əsas:<br>1. Azərbaycan konstitusiyası. Bakı, 1995.<br>2. Azərbaycan Respublikasında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>3. Ağamalıyev M.Q. Kommersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>4. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu. 15 dekabr 1999.<br>5. Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət normalarının siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı.<br>6. Müəssisələr haqqında Azərbaycan respublikası qanunu. 4 oktyabr 1997, 01.07.1994.<br>7. Kiçik sahibkarlara dövlət köməyi haqqında Azərbaycan Respublikası qanunu. 4 iyun 1999. | |
| **İstifadə ediləcək web səhifələr** | | |
| **Fənnin xülasəsi** | Kommersiya fəaliyyətinin əsasları öyrənən gələcəyin vətəndaşları olaraq tələbələr öz həyati istiqamətlərini seçməklə yanaşı, həm də cəmiyyətin inkişaf istiqamətini müəyyən edən hərəkətverici qüvvədirlər. Kommersiya fəaliyyətiİ sahəsində biliklərə malik olan gənc nəsil daha dərin əsaslandırılmış sosioloji və siyasi həllər qəbul etməyə qadir olan vətəndaşlar olurlar. | |
| **Fənnin məqsədləri** | Mahiyyət etibarı ilə kommersiya fəaliyyətinin əsasları tədrisinin əsas məqsədi tələbələrdə kritik anlarda düzgün qərar qəbul etmək, yaxşını | |

<table>
<tr><td></td><td colspan="2">pisdən ayırd edə bilmək, həyati məsələlərin insani həllini tapmaq bacarığını formalaşdırmaqdır</td></tr>
<tr><td>Öyrənmə nəticələri</td><td colspan="2">Kursun sonunda tələbələr bilməlidir:<br>1. Kommersiya fəaliyyətinin əsasları fənninin nəzəri metodologiyasını mənimsəyir.<br>2. İqtisadi sferada baş verən dəyişiklikləri dinamik olaraq təhlil edir.<br>3. Tələbələrə kommersiya fəaliyyətinin qaydalarını öyrədir.<br>4. Kommersiya fəaliyyətinin formalaşması və qanunauyğunluqları öyrənir<br>5. Kommersiya fəaliyyətinin əsasları fənninə dair konsepsiyalar</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td>30 saat</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td>15 saat</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td></td></tr>
<tr><td>Simulyasiya</td><td></td></tr>
<tr><td>Layihə</td><td></td></tr>
<tr><td>Digər</td><td></td></tr>
<tr><td rowspan="10">Qiymətləndirmə</td><td>Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td>Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td>1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td>- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="2">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td>2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla” - A</td></tr>
<tr><td>Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td>Qiymətl. metodları</td><td colspan="2">Yazılı imtahan</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="2">Davamiyyət: Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>Buraxılmış imtahan və ya tapşırıqlar: Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. | |
| **Tematik plan** | | | |
| **Həftə** | **Tarix** | **Mövzular** | **Dərslik / Tapşırıq / Ədəbiyyat** |
| **1** | | **Mövzu №1**<br>**Kommersiya fəaliyyətinin mahiyyəti, məzmunu və vəzifələri. Kommersiya fəaliyyətinin subyektləri və obyektləri.**<br>Qısa icmalı:<br>Kommersiya Latın mənalı söz olub hərfi tərcüməsi “Ticarət” və “Ticarət əməliyyatları” mənasını verir.<br>Müasir iqtisadiyyatda kommersiya fəaliyyətinin mühüm rol oynadığı məlum olsa da, bu məsələ üzrə elmi ictimaiyyətdə və praktik sahədə fikir ayrılıqları çoxdur.<br>Birincisi xalq təsərrüfatının müstəqil bir sahəsi olmaqla ticarət kimi, ikincisi mənfəət əldə etmək məqsədi ilə alqı - satqı aktlarının həyata keçirilməsinə istiqamətlənmiş ticarət prosesi kimi.<br>Hazırkı dövrümüzdə ayrı-ayrı mütəxəssislər kommersiya fəaliyyətini həm də biznes və sahibkarlıq fəaliyyəti ilə əlaqələndirirlər.<br>Kommersiya məhfumu ilə yanaşı kommersant anlayışı da mövcuddur və onlar çox zaman birlikdə işlədilir. Kommersant dedikdə adətən istehsal olunmuş məhsulun satışını təşkil edən şəxs başa düşülür.<br>Bunlarla yanaşı kommersantları əlaqələndiricilər, ticarət agentləri, ticarət məsləhətçiləri, satış üzrə mütəxəssislər, yerli nümayəndələr, marketinq agentləri kimidə qiymətləndirirlər.<br>Yekun qənaətə görə kommersant dedikdə mənfəət əldə etmək məqsədilə iqtisadiyyatın müxtəlif sahələrində kommersiya işinin təşkili və idarə edilməsini təhlil edərək ən optimal variantı seçən və tələb olunan halda onu | 1.Azərbaycan Respublika-sında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>2.Ağamalıyev M.Q. Kom-mersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>3.Çingiz İbrahimli. “Kom-mersiya fəaliyyəti və sənaye müəssisələrində onun təşkili-nin müasir problemləri”. Dərslik, Bakı-2010<br>**4.** T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. “Kommersiya fəaliyyətinin əsasları” dərs vəsaiti) Bakı-2013 |

<table>
<tr><td></td><td></td><td>iqtisadi cəhətdən əsaslandıran mütəxəssis başa düşülür.</td><td></td></tr>
<tr><td>2</td><td></td><td>Movzu 2.<br>Kommersiya fəaliyyətinin prinsipləri, funksiyaları, növləri və tətbiq sferası. Kommersiya fəaliyyətinin mühiti<br><br>Qısa icmalı:<br>Bazar münasibətləri şəraitində firmanın, müəssisənin fəaliyyət göstərməsi xarici mühitlə, yəni satış bazarları və bütün növ ehtiyatlarla qarşılıqlı əlaqə nəticəsində mümkün olur. Firmanın təşkilati strukturu həm də firma ilə onun müştəriləri və təchizatçıları (malgöndərənləri) arasındakı qarşılıqlı münasibətləri əks etdirir.<br>Kommersiya fəaliyyətinin səmərəliliyinin təşkil edilməsi üçün bir sıra mühüm şərtlərin mövcudluğu və onlardan səmərəli istifadə etmək bacarığı tələb olunur.<br>Kommersiya fəaliyyəti və kommersiya münasibətləri yalnız işgüzar münasibətlər subyektlərinin iqtisadi azadlığı şəraitində inkişaf edə bilər. bundan əlavə qarşılıqlı kommersiya münasibətlərində sərbəstlik, xarici mühitdə mövcud şəraitdən asılı olaraq kommersiya sirlərinin qorunması tələbindən və s. asili olaraq məhdudlaşa bilər.<br>Təsərrüfatçılığın bazar şərtləri mal göndərənlərlə əmtəə alıcıları arasında kommersiya münasibətlərinin yeni tipinin yaranmasına səbəb olmuş, kommersiya sahəsində çalışanların təşəbbüskarlığı və müstəqilliyi üçün geniş imkanlar açmışdır.<br>Bazar münasibətləri şəraitində, onun mürəkkəb və çoxşahəli durumunda kommersiya fəaliyyətini yalnız yüksək hazırlıqlı və ixtisaslı, eləcə də kommersiya işinin müasir təşkili və texnologiyası, marketinq, menecment sahəsində əsaslı hazırlıq keçmiş və</td><td>1.Azərbaycan Respublika-sında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>2.Ağamalıyev M.Q. Kom-mersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>3.Çingiz İbrahimli. “Kom-mersiya fəaliyyəti və sənaye müəssisələrində onun təşkili-nin müasir problemləri”. Dərslik, Bakı-2010<br>4. T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. “Kommersiya fəaliyyətinin əsasları” dərs vəsaiti) Bakı-2013</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | ixtisaslarını yüksəltmiş kadrlar müvəffəqiyyətlə həyata keçirə bilərlər.<br>Kommersiya fəaliyyəti digər sahibkarlıq fəaliyyətləri kimi dövlət tənzimlənməsinə ehtiyac duyur. | |
| 3 | | **Mövzu 3.**<br>**Kommersiyanın maddi-texniki bazası. Kommersiya fəaliyyəti iştirakçılarının mülkiyyəti**<br>Qısa icmalı:<br>Elmi-texniki tərəqqi əsasında ölkə təsərrüfatının texniki bazasının təkmil-ləşdirilməsi məsələsi, ölkənin iqtisadi siya-sətinin əsas istiqamətlərindən biri kimi qiymətləndirilmişdir.<br>Ticarətin maddi-texniki bazasının böyük bir hissəsini əsas kapital təşkil edir.<br>Ticarətin əsas kapitalı təyinatına görə iki yerə bölünür.<br>Ticarətin əsas kapitalı onun maddi-texniki bazasının tərkib hissəsini təşkil edir. Çünki maddi-texniki baza daha geniş anlamdır, yəni onun ümumi dəyəri əsas kapitalın məcmu dəyərindən xeyli çoxdur.<br>Əsas fondlar cinsi və dəyəri ilə olmaq-la iki göstərici üzrə uçota alınır. Cinsi göstəricilər əsas fondların miqdar tərki-bini, məsələn ticarət və kütləvi iaşə müəssisələrinin miqdarı, anbarların sayı, sahəsi və tutumu, maşın və avadanlıq-ların sayı, onların gücü və s. üzrə uçota alınır.<br>Əsas fondların dəyərinin köhnələn hissəsinin pul ilə ifadəsinə amortizasiya ayırmaları deyilir və bu ayırmalar amor-tizasiya normaları əsasında hesablanır. Amortizasiya normaları əsas fondların növləri üzrə fərqli olaraq faizlə müəyyən edilir.<br>Əsas fondların təkrar istehsalı iki formada həyata keçirilir. Birinci geniş | 1. T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. “Kommersiya fəaliyyətinin əsasları” dərs vəsaiti) Bakı-2013<br>2.Müəssisələr haqqında Azərbaycan respublikası qanunu. 4 oktyabr 1997, 01.07.1994.<br>3.Kiçik sahibkarlara dövlət köməyi haqqında Azərbay-can Respublikası qanunu. 4 iyun 1999.<br>4.Sahibkarlıq fəaliyyəti haq-qında Azərbaycan Respub-likası qanunu. |

| | | | |
|---|---|---|---|
| | | təkrar istehsal, ikincisi sadə təkrar istehsaldır.<br>Əsasən dövlət mülkiyyətinə əsaslanan sosialist iqtisadi quruluşundan bazar iqtisadiyyatına keçid dövlətin qarşısında iqtisadiyyatın yeni formatda qurulması, əmlakın dövlətsizləşdirilməsi prosesinin tez, aşkarlıq şəraitində və məqsədyönlü formada həyata keçirilməsi kimi çox mühüm məsələlərin həllini ortaya çıxarmışdır. | |
| **4** | | **Mövzu 4.**<br>**Kommersiya fəaliyyətinin psixologiyası və etikası. Kommersiya fəaliyyətində risk.**<br><br>Qısa icmal:<br>Əsas kommersiya mütəxəssisi olmaqla kommersant peşəkar tələblər nöqteyi nəzərindən aşağıdakı məsələlərdə geniş xüsusi biliklərə və vərdişlərə malik olmalıdır:<br>-Xarici əməliyyatlar da daxil olmaqla əmtəələrin alqı-satqısı;<br>-Marketinq; idarəetmə və hüquq; mühasibat uçotu; maliyyələşdirmə; və vergitutma.<br>Etika (yunanca ethas-adət xarakter) insanın və ya hər hansı bir peşəkar qrupun (bu halda kommersantların) davranışının əxlaq (mənəviyyat) normaları sistemidir.<br>Hər bir sahibkar kommersant işgüzar insan etiketinə riayət etməklə, peşəkar davranış vərdişlərinə yiyələnməlidir.<br>Kommersantın iş vaxtının çox hissəsi müxtəlif kommersiya sövdələşmələri ilə bağlı olan işgüzar danışıqlara və işgüzar yazışmalara sərf olunur.<br>Şihafi danışıqlarla yanaşı kommersiya işində yazışmaların geniş istifadə olunur. Belə məktublar kommersiya sazişləri bağlanarkən və yerinə yetirilərkən hüquqi şəxs adında tərtib olunur və hüquqi qüvvəyə malikdir.<br>Kommersiya işinin səmərəli təşkili sahibkardan xüsusi qabiliyyət, bazar konyunkturasında, düzgün istiqamət | 1. T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. “Kommersiya fəaliyyətinin əsasları” dərs vəsaiti) Bakı-2013<br>2.Müəssisələr haqqında Azərbaycan respublikası qanunu. 4 oktyabr 1997, 01.07.1994.<br>3.Kiçik sahibkarlara dövlət köməyi haqqında Azərbaycan Respublikası qanunu. 4 iyun 1999.<br>4.Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu |

| | | | |
|---|---|---|---|
| | | seçmək bacarığı, düşünülmüş risk tələb edir.<br>Riskin dərəcəsini təyin etmək üçün əsasən 2 üsuldan istifadə olunur: statistik; ekspert üsulları.<br>Müxtəlif üsul, model və fəndlərdən, mütəxəssislərin təcrübəsin-dən, müasir hesablama texnikasından istifadə etməklə kommersiya fəaliy-yətinin nəticələrini və bazarın hərtərəfli təhlilini həyata keçirən sahibkar kommersiya əməliyyatları zamanı yarana biləcək vəziyyətləri müəyyən edərək risklərin azaldılması istiqamətində tədbirlər həyata keçirə bilər. | |
| **5** | | **Mövzu 5.**<br>**Kommersiya fəaliyyətinin idarə olunması**<br>Qısa icmal:<br>Bazar münasibətləri şəraitində sənaye müəssisələrinin, ayrı-ayrı firmaların fəaliyyət göstərməsi xarici mühitlə, yəni satış bazarları və bütün növ ehtiyatlarla qarşılıqlı əlaqə nəticəsində mümkün olur. Firmanın təşkilatı strukturu həm də, firma ilə onun təchizatçıları və müştəriləri arasındakı qarşılıqlı münasibətləri əks etdirir.<br>Kommersiya fəaliyyətinin həyata keçirilməsi mexanizmlərinə müəssisənin malgöndərən və istehlakçılarla kommersiya əlaqələrinin formalaşmasını təmin edən tədarük və satış sistemləri aid edilir.<br>Dünya miqyasında iqtisadi inteqrasiya proseslərinin güclənməsi, ölkələr arasında iqtisadi –ticarət əlaqələrinin genişlənməsi hər bir müəssisənin öz imkanlarını daha düzgün planlaşdırılmasına diqqətin artırılmasını tələb edir.<br>Hazırda respublikamızda kommersiya fəaliyyəti habelə bu fəaliyyətə nəzarət əsasən Azərbaycan Respublikasının konstitusiyası, Azərbaycan Respublikasının "Mülki Məcəlləsi", "Əmək Məcəlləsi", "Vergi məcəlləsi", "Gömrük məcəlləsi", müstəqillik illərində Milli Məclis tərəfindən qəbul edilmiş bir çox digər qanunlar, ölkə Prezidentinin fərman və | 1. T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. "Kommersiya fəaliyyətinin əsasları" dərs vəsaiti) Bakı-2013<br>2.Müəssisələr haqqında Azərbaycan respublikası qanunu. 4 oktyabr 1997, 01.07.1994.<br>3.Kiçik sahibkarlara dövlət köməyi haqqında Azərbaycan Respublikası qanunu. 4 iyun 1999.<br>4.Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu |

| | | | |
|---|---|---|---|
| | | sərəncamları Nazirlər Kabinetinin qərar və sərəncamları ilə həyata keçirirlər | |
| **6** | | **Mövzu 6.**<br>**Kommersiya məlumatları, kommersiya sirri**<br><br>Qısa icmal:<br>Kommersiya məlumatı dedikdə, müxtəlif əmtəə və xidmətlər bazarında yaranmış şərait haqqında xəbərlər başa düşülür. Kommersiya məlumatı firmalara öz fəaliyyətini təhlil etməyə, planlaşdırmağa və onun nəticələri üzərində nəzarətin həyata keçirilməsinə imkan verir.<br>Kommersiya informasiyasının mənbələrindən biri kimi xarici statistika məlumatlarını və KİV vasitələrində bazarın vəziyyəti haqqında dərc olunanları aid edirlər.<br>Bazar iqtisadiyyatı şəraitində məxfilik istehsalçını haqsız rəqabətdən qoruyur. Haqsız rəqabətə ticarət markasından gizli istifadə olunması, rəqibin məhsulunun saxtalaşdırılması, aldadıcı reklam, satınalma , şantaj və s. bu kimi müxtəlif qanuna zidd hərəkətlər aid edilir.<br>Əmtəə nişanı istehsalçının (satıcının) marka adından və ya marka nişanından (emblemindən) istifadə etməsinin müstəsna hüququnu qoruyur. Bazar iqtisadiyyatı şəraitində əmtəə nişanları məsələsi çox mühüm əhəmiyyət daşıyır.<br>Əmtəə nişanının sahibi əmtəə nişanından istifadə etməkdə və sərəncam verməkdə, o cümlədən digər şəxslərin ondan istifadəsinə qadağa qoymaqda müstəsna səlahiyyətə malikdir.<br>Əmtəə nişanının qeydə alınması barədə iddia ərizəsi hüquqi və fiziki şəxs tərəfindən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. | 1. T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. “Kommersiya fəaliyyətinin əsasları” dərs vəsaiti) Bakı-2013<br>2.Azərbaycan Respublikasında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>3.Ağamalıyev M.Q. Kommersiya fəaliyyətinin \ təşkili. Bakı, 2004.<br>4.Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu |

| | | | |
|---|---|---|---|
| 7 | | **Mövzu 7.**<br>**Kommersiya fəaliyyətinin kredit-ləşməsi və mahiyyəti. Kommersiya müəssisələrinin gəlir və itkilər hesabı və balansı**<br><br>Qısa icmal:<br>Bazar iqtisadiyyatı şəraitində müəssi-sələrin maliyyəsi küllü miqdarda pul vəsaitləri fondlarının dövretməsinə xidmət edir.<br>Kommersiya müəssisənin maliyyəsi ölkənin maliyyə münasibətlərinin tərkib hissəsini təşkil edir.<br>Kommersiya müəssisələrinin maliyyəsi pul tədavülünün ayrılmaz hissəsini təşkil edir və onun əhəmiyyəti iqtisadi münasibətlərdə pul tədavülünün hansı yer tutması ilə sıx əlaqədardır.<br>Müasir təsərrüfatçılıq şəraitində iqtisadi mexanizmin mühüm elementlə-rindən biri də bank krediti hesab olunur.<br>Kredit kommersiya müəssisəsinin (firmanın) dövriyyə vəsaitinin mühüm mənbələrindən biri kimi əhəmiyyətlidir.<br>Bazar münasibətləri özü ilə birlikdə yeni iqtisadi anlayışları ortaya çıxarır. Xalq təsərrüfatı sahələrində ümumi gəlir, təmiz gəlir və müəssisənin sərən-camında qalan gəlir anlayışlarından istifadə olunur.<br>Müəssisənin maliyyə-təsərrüfat fəaliyyəti nəticəsində öz əksini tapmış gəlirin ümumi ölçüsündən başqa onun istehsal, iş və xidmət sahələrində hesabat dövründə rentabellik səviyyəsi müəyyənləşdirilir.<br>Uzunmüddətli xərclərin rentabelliyi satışdan əldə edilən gəlirin satışdan əldə edilən hasilata olan nisbəti ilə ölçülür. | 1.Azərbaycan Respublika-sında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>2.Ağamalıyev M.Q. Kom-mersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>3.Çingiz İbrahimli. “Kom-mersiya fəaliyyəti və sənaye müəssisələrində onun təşkili-nin müasir problemləri”. Dərslik, Bakı-2010<br>**4.** T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. “Kommersiya fəaliyyətinin əsasları” dərs vəsaiti) Bakı-2013 |
| 8 | | **Mövzu 8.**<br>**Kommersiya müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili və planlaşdırılması**<br><br>Qısa icmal:<br>Bazar münasibətləri şəraitində sahib-karlıq fəaliyyətinin əsas məqsədi gəli-rin əldə edilməsidir. Gəlir müəssisəyə özünü maliyyələşdirməyə, öz maddi və sosial tələblərini ödəməyə, vergi yığım- | 1.Azərbaycan Respublika-sında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>2.Ağamalıyev M.Q. Kom-mersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>3.Sahibkarlıq fəaliyyəti |

| | | | |
|---|---|---|---|
| | | ları əsasında növbəti il üçün büdcənin formalaşmasına imkan verir.<br>Müəssisənin əsas maliyyə göstəriciləri keçən və hesabat dövrü ilə müqayisəli surətdə təhlil olunması, ayrı-ayrı mərhələlərdə baş verən kəmiyyət və keyfiyyət göstəricilərini aşkarlamağa imkan yaradır.<br>Planlaşdırmanın ən sadə və yığcam tərifi belə işlədilir: qarşıdakı dövr üçün təsərrüfat-maliyyə fəaliyyətini öncədən görmək, bunları kağız üzərində əks etdirmək və plan ilində reallaşdırmaq üçün həyata keçirilməsi mexanizmini işləyib hazırlamaq.<br>Planlaşdırmada əsas və başlıca məqsəd müəssisənin, onun kollektivinin və bütövlükdə cəmiyyətin sosial-iqtisadi mənafeləri naminə maddi, əmək və maliyyə resurslarından səmərəli istifadə edilməsi əsasında və yüksək texnoloji-xidmətlər şəraitində ən yüksək təsərrüfat-maliyyə nəticələrinə nail olmaqdan ibarətdir.<br>Biznes planın olması hər bir müəssisə üçün həmişə gərəklidir. Müəssisənin ilkin yaradılışı ilə belə bir planın tərtib olunması mütləqdir. Bu, xüsusilə müəssisə tərəfindən bank krediti götürmək istəyində bank tərəfindən tələb olunan əsas iqtisadi sənəd hesab olunur.<br>Biznes-plan işgüzarlığın bütün sahələrində istifadə edilən işçi vasitə hesab olunur və o müəssisənin fəaliyyəti prosesini təsvir edir və onun iqtisadi inkişafına əsaslı köməklik göstərir. | haqqında Azərbaycan Respublikası qanunu<br>**4.** T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. "Kommersiya fəaliyyətinin əsasları" dərs vəsaiti) Bakı-2013<br>5.İ..e.d. Zahid Fərrux Məmmədov. "Pul, kredit, banklar". Dərslik, Bakı-2008 |
| **9** | | **Mövzu 9.**<br>**Malların alqı-satqısı və mal yeridilişi. Malların çeşidinin formalaşmasında, mal alışında kommersiya strategiyası.**<br><br>Qısa icmal:<br>Alqı-satqı ticarətdə kommersiya fəaliyyətinin əsasını təşkil edir və mahiyyət etibarilə kommersiya işi buradan başlayır. Məlumdur ki, əmtəə tədavülünün əsas funksiyası dəyərin formasının dəyişilməsində öz əksini tapır.<br>Düzgün təşkil edilmiş topdan satış əhalinin təchizatı üçün pərakəndə satış | 1.Azərbaycan Respublikasında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>2.Ağamalıyev M.Q. Kommersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>3.Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu<br>**4.** T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. "Kommersiya fəaliyyətinin əsasları" dərs |

| | | | |
|---|---|---|---|
| | | şəbəkəsində zəruri əmtəə çeşidinin formalaşmasına, tələbata uyğun olaraq istehsalçıya təsir etməyə, eləcə də ticarət şəbəkəsinin işinin səmərəli təşkilinə imkan yaradır.<br>Əmtəələrin alqışı üzrə kommersiya əməliyyatlarının müvəf-fəqiyyətlə yerinə yetirilməsi üçün topdan bazalar sistematik olaraq əmtəələrin alış mənbələrinin və malgöndərənlərin müəyyənləşdirilməsi və öyrənilməsi ilə məşğul olmalıdırlar.<br>Kommersiya işçiləri öz iqtisadi rayonlarını və onun təbii sərvətlərini, sənayesini, kənd təsər-rüfatını, istehsal imkanlarını və sənaye müəssisələrində istehsal olunan məlumatların çeşidini yaxşı bilməlidirlər.<br>Ticarətin yüksək keyfiyyətli təşkili əsasında əmtəələrin alqı-satqı aktlarının həyata keçirilməsi alıcılara göstərilən müxtəlif və rəngarəng xidmət əməliyyatları ilə müşayət olunur. | vəsaiti) Bakı-2013<br>5.İ..e.d. Zahid Fərrux Məmmədov. "Pul, kredit, banklar". Dərslik, Bakı-2008 |
| **10** | | **Mövzu 10**<br>**Kommersiya fəaliyyətinin infrastruk-turu, kommersiya müqavilə məsuliy-yəti.**<br><br>Qısa icmal:<br>Bütün malgöndərənlərlə səmə-rəli təsərrüfat əlaqələri qurulmalı və bu zaman birbaşa və uzunmüddətli müqavilə münasibətlərinə üstünlük verilməlidir. Malgöndərənlərlə təsər-rüfat əlaqəsinin əsas forması əmtəə göndərilməsi barədə bağlanan müqavilədir.<br>Əmtəələrin göndərilməsi barə-də topdan yarmarkalarda müqavilə-lərin bağlanması topdan alışın ən mütərəqqi formasıdır.<br>Birjalar bazar iqtisadiyyatının iqtisadi aləti rolunu oynayır və əmtəələrin, xammalın və qiymətli kağızların alışı və satışında azad bazar münasibətlərini formalaşdırır.<br>Sifariş edilən malların göndərilməsi və müəyyən podrat işlərin yerinə yetirilməsi üçün aparılan metod və üsullardan biri də müsabiqələrin və ya tenderlərin keçirilməsidir. Müsabiqə | 1.Azərbaycan Respublika-sında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>2.Ağamalıyev M.Q. Kom-mersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>3.Çingiz İbrahimli. "Kom-mersiya fəaliyyəti və sənaye müəssisələrində onun təşkili-nin müasir problemləri". Dərslik, Bakı-2010<br>**4.** T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. "Kommersiya fəaliyyətinin əsasları" dərs vəsaiti) Bakı-2013 |

| | | | |
|---|---|---|---|
| | | (tender) malların göndərilməsi üçün sifarişlərin və ya podrat işlərin yerinə yetirilməsi üçün qənaətli kommersiya əməliyyatları yerinə yetirmək məqsədilə təşkilatların həyata keçirdikləri xüsusi formadır.<br>Mal göndərilişi müqavilələrinin reallaşması gedişatında çox vaxt tərəflər hər hansı bir obyektiv və ya subyektiv səbəblər üzündən üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmirlər və bununla da tərəfdaşlarına maddi və mənəvi ziyan vururlar. | |
| **11** | | **Mövzu 11.**<br>**Beynəlxalq kommersiya, ictimaiyyətlə əlaqə.**<br><br>Qısa icmal:<br>Hər bir ölkənin iqtisadi həyatında xarici ticarət fəaliyyəti olmaqla ixrac-idxal əməliyyatları xüsusi yer tutur. Xarici ticarət bir ölkənin digər ölkələrlə ticarət etməsini nəzərdə tutur ki, bunun da həm idxal, həm də ixrac tərəfləri vardır.<br>Beynəlxalq ixtisaslaşmanın və kooperasiyanın genişlənməsi xarici ticarətin liberallaşmasına, ixraca qoyulan məhdudiyyətlərin aradan götürülməsinə və gömrük rüsumlarının əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb olmuşdur.<br>Lisenziyalaşdırma - əmtəələrin çıxarılması qaydasıdır ki, bunun üçün lisenziyalaşdırma siyahısına salınmış əmtəələrin alqı-satqısı üçün müvafiq icra hakimiyyəti tərəfindən verilmiş xüsusi razılıqdır. Xarici ticarət əməliyyatlarının lisenziyalaşdırması müxtəlif əmtəələrin ixracına və idxalına miqdar məhdudiyyətinin kvotanın tətbiqi ilə sıx əlaqədardır.<br>İxrac – idxal əməliyyatları ticarət təşkilat və müəssisələri tərəfindən öz təşəbbüsləri, xarici firmalarla bağlanmış müqavilələr əsasında xarici ticarət əməliyyatlarının təşkili ilə məşğul olan yuxarı orqanların və digər müəssisələrin təşəbbüsü ilə həyata keçirilə bilər. | 1.Azərbaycan Respublikasında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>2.Ağamalıyev M.Q. Kommersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>3.Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu<br>**4.** T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. “Kommersiya fəaliyyətinin əsasları” dərs vəsaiti) Bakı-2013<br>5.İ..e.d. Zahid Fərrux Məmmədov. “Pul, kredit, banklar”. Dərslik, Bakı-2008 |

| | | | |
|---|---|---|---|
| | | Gömrük rəsmiləşdirilməsinə tələb olunan bütün sənədlərin toplanması ilə bu və ya digər gömrük əməliyyatlarının həyata keçirilməsi mümkündür. Bu qaydaların hər hansı bir formada pozulmasına qüvvədə olan gömrük qaydalarının pozulması kimi baxılır. | |
| **12** | | **Mövzu 12.**<br>**Kommersiya fəaliyyəti və marketinq. Kommersiya fəaliyyətinin markaetinq mərhələsi.**<br><br>Qısa icmal:<br>Sahibkarlığın yeni mərhələsi olan marketinq konsepsiyası iqtisadi təcrübədə geniş və dərin tətbiqi ilə ötən əsrin ikinci yarısının məhsuludur. Onun şüarı isə nə istehsal olunursa onu satmaq deyil, nə satılırsa onu istehsal etməkdən ibarət olmuşdur.<br>Marketinq kompleksinin əsas elementlərindən biri olmaqla marketinq əlaqələri sistemi son nəticədə firmanın ümumi marketinq məqsədlərinə nail olmasına zəmin yaradır. Marketinq əlaqələri öz fəaliyyətində əmtəənin istehlakçıya doğru hərəkətinə təsir göstərən konkret insanlara və müxtəlif firmalara istiqamətlənmişdir.<br>Kommersiya təbliğatı dedikdə əmtəə və xidmətlərə tələbin qeyri – şəxsi stimullaşdırılması nəzərdə tutulur. Bu isə mətbuatda xoş rəylərin çap olunması, radio, televiziya və səhnədə faydalı və əlverişli görüşlərin təşkili formasında aparılan və heç bir konkret sponsor tərəfindən maliyyələşdirilməyən fəaliyyət başa düşülür.<br>Bazarda yeni əmtəələrin sayının artması satışın həvəsləndirilməsi üzrə tədbirlərin genişləndirilməsini önə çəkir. Marketinq kommunikasiyalarının bir forması kimi satışın həvəsləndirilməsi adətən qısamüddətli xarakter daşıyan və əmtəə alışını və satışını dəstəkləyən sövqedici tədbirlər və üsullar sistemini təşkil edir.<br>Satışın həvəsləndirilməsi üsulları ilə əldə olunan məqsədlər firmanın marketinq vəzifələri ilə və bu vəzifələrin | 1.Azərbaycan Respublikasında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>2.Ağamalıyev M.Q. Kommersiya fəaliyyətinin təşkili. Bakı, 2004.<br>**3.** T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. "Kommersiya fəaliyyətinin əsasları" dərs vəsaiti) Bakı-2013<br>4.İ..e.d. Zahid Fərrux Məmmədov. "Pul, kredit, banklar". Dərslik, Bakı-2008<br><br>spublikası qanunu |

| | | | |
|---|---|---|---|
| | | istiqamətləndiyi məqsədli auditoriyanın xarakteristikalarıilə müəyyənləşdirilir.<br>Məqsədli auditoriyaların tipindən asılı olaraq satışın həvəsləndirilməsinin əsas vəzifələrini və üsullarını aşağıdakılar kimi xarakterizə etmək olar. Onu da qeyd etmək lazımdır ki, həvəsləndirmənin üç üsulu daha çox fərqləndiruilir: istehlakçılar, vasitəçi ticarətçilər, öz ticarət personalı. | |
| **13** | | **Mövzu 13.**<br>**Kommersiya fəaliyyətində lizinq, faktorinq, françayzinq.**<br>Qısa icmal:<br>"Lizinq" ingilis dilindən tərcüməsi icarə götürmək, icarəyə vermək deməkdir. Bu fəaliyyət ilk olaraq "Bell" telefon kampaniyası öz telefon aparatlarını satmayıb, onları icarəyə vermək haqqında qərar qəbul etdikdən sonra istifadəyə daxil olmuşdur. Ilk müstəqil lizinq kampaniyası 1952-ci ildə San-Fransiska (ABŞ) şəhərində yaradılıb.<br>Lizinq predmeti kimi sahibkarlıq fəaliyyətində istifadə edilən hər bir şey, o cümlədən müəssisələr, əmlak kompleksləri, binalar, qurğular, avadanlıqlar, nəqliyyat vasitələri və digər bu kimi əmlaklar iştirak edə bilər. lizinq sövdələşməsində, bir qayda olaraq üç tərəf iştirak edir: lizinqverən, lizinq alan və satıcı.<br>Faktorinq – müştərinin debitor borcunun inkassa edilməsi, bu vaxt hesablar dərhal, yaxud borclar ödənildikdə verilə bilər. Faktorinqin qısa müddətli kreditvermə forması daha geniş yayılmışdır.<br>Faktorinq – firma sahibkardan borc tələblərinin ekvivalentini dərhal təqdim etdiyi üçün müəyyən faizlər tutur, riskə görə mükafat və inzibati – idarə xərclərinin ödənilməsini tələb edir.<br>Dünyanın inkişaf etmiş ölkələrində françayzinq əsasında sahibkarlıq fəaliyyətinin təşkilinə böyük diqqət yetirilir. Françayzinq biznesin təşkilinin elə bir formasıdır ki, bu zaman | 1. T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. "Kommersiya fəaliyyətinin əsasları" dərs vəsaiti) Bakı-2013<br>2.Azərbaycan Respublikasında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>3.Ağamalıyev M.Q. Kommersiya fəaliyyətinin \ təşkili. Bakı, 2004.<br>4.Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu |

| | | | |
|---|---|---|---|
| | | iri şirkət müqavilə əsasında hüquqi və ya fiziki şəxsə şirkətin məhsulunu satmaq və ya xidmətlər göstərmək hüququ verir.<br>Son illərdə istehsal françayzinqi daha çox populyarlıq əldə etmişdir. Bu forma françayzerlə françayzinqin sıx əlaqəsini, fəaliyyətin dəqiqliklə müəyyənləşdirilməsi və kiçik firmanın françayzinin yüksək səviyyədə məsuliyyətini nəzərdə tutur. | |
| **14** | | **Mövzu 14.**<br>**Kommersiya fəaliyyətində reklam**<br>Qısa icmal<br>Əmtəə və ya xidmətlərin istehlakçısı onları əldə edərkən alqı- satqı prosesinin həyata keçirilməsinə hazır olmalıdır, yəni o, onu belə zərurətə inandıracaq müvafiq informasiyanı əldə etməlidir. Bu rolu reklam yerinə yetirir.<br>Reklam təkcə istehlakçıları yeni əmtəələr, xidmətlər və ya qiymətlər haqqında məlumatlarla təmin edən özünəməxsus yol göstərən kimi çıxış etmir, o, həm də vətəndaş hüquqi nöqteyi-nəzərindən alqı- satqı müqavilələrinin bağlanması zamanı kommersiya təklifi funksiyasını da yerinə yetirə bilər.<br><br>Ticarət reklamının köməyilə əmtəələrin istehlak xassələri və bu əmtəələrin satışım müşayiət edən xidmətlər haqqında informasiyalar məqsədyönlü şəkildə yayılır.<br>Reklamın düzgünlüyü onda yalnız həqiqətə uyğun gələn informasiyalardan istifadə olunmasını nəzərdə tutur.<br>«Reklam haqqında» qanunda reklam sahəsində dövlət nəzarəti üzrə orqamn federal antiinhisar səlahiyyətləri, habelə reklam haqqında qanununun pozulması faktının müəyyən olunması halında əks reklamın verilməsi qaydası və müvafiq reklama görə məsuliyyət də müəyyən olunmuşdur.<br>Reklamın obyekti kimi insan çıxış edir, buna görə də reklamın təsiri ilk növbədə - psixoloji təsirdən ibarətdir. Reklamın istehlakçısı onu ilk növbədə, öz maraqları mövqeyindən, reklam | . 1. T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. "Kommersiya fəaliyyətinin əsasları" dərs vəsaiti) Bakı-2013<br>2.Azərbaycan Respublikasında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>3.Ağamalıyev M.Q. Kommersiya fəaliyyətinin \ təşkili. Bakı, 2004.<br>4.Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu |

| | | | |
|---|---|---|---|
| | | olunan malın onun tələbatlarının ödənilməsi baxımından qiymətləndirilir.<br>İnsana reklamın təsirinin həyata keçirildiyi kütləvi kommunikasiyaların vəzifələri həddən artıq mürəkkəbdir. | |
| **15** | | **Mövzu 15.**<br>**İnkişaf etmiş ölkələrdə kommersiya fəaliyyətinin təşkili.**<br>Qısa icmal<br>Beynəlxalq (xarici) ticarət sahəsində alimlər tərəfindən bir sıra nəzəriyyələr irəli sürülmüşdür. Lakin dünya ölkələri özlərinin dövlət və milli mənafeləri naminə bir halda bu nəzəriyyələrin hamısını, başqa bir halda onların bəzilərini əsas götürürlər.<br>Beynəlxalq ticarət öz fəaliyyətində bu sahənin qüvvədə olan təşkilati-hüquqi mexanizminə əsaslanır.<br>Beynəlxalq ticarətin mühüm hüquqi təşkilatlarına: Beynəlxalq Ticarət Arbitrajı; Beynəlxalq Mal hərracı; Beynəlxalq Yarmarkalar İttifaqı; Brüssel Gömrük Nomenklaturu və s aid edilir.<br>Xarici ticarətə dövlət müdaxiləsi bir çox amillərlə əsaslanır. Bunlara işsizlik məsələsi; gənc istehsal sahələrinin mühafizəsi; sənayeləşdirmənin təkmilləşdirilməsi; digər ölkələrlə əlaqələr və s aid edilə bilər. | 1. T.Q.Əliyev, Ş.T.Əliyeva, R.T.Əliyev. “Kommersiya fəaliyyətinin əsasları” dərs vəsaiti) Bakı-2013<br>2.Azərbaycan Respublikasında olan mülkiyyətin özlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanunu. 07.01.1993.<br>3.Ağamalıyev M.Q. Kommersiya fəaliyyətinin \ təşkili. Bakı, 2004.<br>4.Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu |
| | | **Seminar məşğələləri.Cəmi-60 saat** | |
| 1 | | **Mövzu1. Kommersiya fəaliyyətinin mahiyyəti, məzmunu və vəzifələri. Kommersiya fəaliyyətinin subyektləri və obyektləri** | 2 s. |
| 2 | | **Mövzu2. Kommersiya fəaliyyətinin prinsipləri, funksiyaları, növləri və tətbiq sferası. Kommersiya fəaliyyətinin mühiti** | 2 s. |
| 3 | | **Mövzu 3. Kommersiyanın maddi-texniki bazası. Kommersiya fəaliyyəti iştirakçılarının mülkiyyəti** | 2 s. |
| 4 | | **Mövzu 4. Kommersiya fəaliyyətinin psixologi-yası və etikası. Kommersiya fəaliyyətində risk.** | 2 s. |
| 5 | | **Mövzu 5. Kommersiya fəaliyyətinin idarə olun- u ması** | 2 s. |
| 6 | | **Mövzu 6. Kommersiya məlumatları, kommer-siya sirri** | 2 s. |

| | | | |
|---|---|---|---|
| 7 | | **Mövzu 7 Kommersiya fəaliyyətinin kredit-ləşməsi və mahiyyəti. Kommersiya müəssisələrinin gəlir və itkilər hesabı və balansı** | 2 s. |
| 8 | | **Mövzu 8 Kommersiya müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili və planlaşdırılması** | 1 s. |
| | | **Cəmi:** | 15 s. |

**Fənn müəllimi: Baş müəllim M.M.Abbasova**